Peacebuilding through Capacity Enhancement and Civic Engagement

European Union Initiative



# İKİ OD ARASINDA:

## MÜNAQİŞƏ TRANSFORMASİYASINDA QADINLAR

11-12 MART 2023
BAKI, AZƏRBAYCAN

**Bu müzakirə icmalı Avropa İttifaqının 'Stabillik və Sülhə Yardım' (IcSP) aləti tərəfindən maliyyələşdirilən "Bacarıqların Artırılması və Vətəndaşların İştirakı ilə Sülh Quruculuğu: Mərhələ 2" (PeaCE-2) proqramı çərçivəsində hazırlanıb. Bu müzakirə icmalının məzmunu yalnız müəlliflərin məsuliyyətidir və heç bir halda Avropa İttifaqının mövqeyini əks etdimək üçün əsas göstərilə bilməz.**

Bu icmalda ifadə olunan fikirlər iştirakçılar arasındakı müzakirələrin nəticəsidir və hər hansı bir təşkilatın və ya şəxsin mövqeyini əks etdirmir.

# MƏZMUN


1 TƏŞƏKKÜR

2 QISA İCMAL

3 GİRİŞ

4 FEMİNİST XARİCİ SİYASƏT AZƏRBAYCAN ÜÇÜN ALTERNATİV OLA BİLƏRMİ? – YENİ PERSPEKTİVLƏR

5 BARIŞIQ PROSESLƏRİNDƏ VƏ SÜLH RAZILAŞMALARINDA GENDER ASPEKTLƏRİNİN NƏZƏRƏ ALINMASINA NECƏ NAİL OLMAQ OLAR? DAVAM EDƏN BARIŞIQ PROSESİNDƏ QADINLARIN MƏNALI İŞTİRAKINA YENİ YANAŞMALAR

8 QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN QADINLARIN QORUNMASI VƏ TƏMSİL OLUNMASI. ONLARIN EHTİYACLARINA NECƏ XÜSUSİ DİQQƏT YETİRMƏK OLAR?

11 TÖVSİYƏLƏR

**TƏŞƏKKÜR**

Bu icmal Avropa İttifaqının 'Stabillik və Sülhə Yardım' (IcSP) aləti tərəfindən maliyyələşdirilən "Bacarıqların Artırılması və Vətəndaşların İştirakı ilə Sülh Quruculuğu: Mərhələ 2" (PeaCE-2) proqramı çərçivəsində həyata keçirilmiş "İki Od Arasında: Barışıq Prosesində Qadınlar" layihəsinin 11-12 mart 2023-cü il tarixlərində ekspertlərin iştirakı ilə Bakı şəhərində baş tutmuş müzakirələrin nəticələrini təqdim edir.

Layihəyə ayırdıqları vaxta, müzakirələrə qatdıqları dəyərli fikirlərə və bu icmalın hazırlanmasının prosesində daim dəstək olduqlarına görə aşağıdakı iştirakçılara xüsusi təşəkkürümüzü bildiririk: Fərid Mehralizadə, Kamilə Qorxmazova, Leyla Cahangirova, Mia Quliyeva, Nərgiz Muxtarova, Pərvanə Məmmədova, Rəna Tahirova və Səbinə Ağayeva. Müzakirələri moderasiya etdiyinə görə Pərvanə Məmmədovaya əlavə təşəkkür etmək istəyirik.

Layihənin icrası zamanı verdikləri dəstəyə və məkan təminatına görə Topçubaşov Mərkəzinin komandasına təşəkkürümüzü bildiririk.

Nəhayət, layihə boyu sonsuz texniki dəstəyi və məsləhətlərinə görə Avrasiya Əməkdaşlıq Fondun Azərbaycana dərin təşəkkürümüzü bildiririk.

Bu icmal Gülxanım Məmmədova tərəfindən hazırlanıb.

© Bütün hüquqlar qorunur. Bakı, Azərbaycan. 2023

## QISA İCMAL

Qadınların sülh quruculuğuna cəlb edilməsi, qaçqın və məcburi köçkün qadınların qorunması və təmsil olunması prosesi, qarşılaşdıqları unikal problemləri nəzərə alacaq, onlarla bağlı şəbəkə, təhsil, aktivlik, strategiya və dialoqu əhatə edən hərtərəfli, vahid bir yanaşma tələb edir. Birlikdə işləyərək qadınlar sülhün təşviqində və daha inklüziv cəmiyyətlərin qurulmasında həlledici rol oynaya bilərlər.

Öz növbəsində, Azərbaycanda feminist xarici siyasət yanaşması bu istiqamətdə gender bərabərliyinə, insan təhlükəsizliyinə və ölkənin beynəlxalq münasibətlərində inklüzivliyə diqqət yetirməklə kömək edə bilər. Buraya qadın hüquqlarının və gender əsaslı inkişaf siyasətinin təşviqi, qadın qaçqın və məcburi köçkünlərin ehtiyaclarının prioritetləşdirilməsi və vətəndaş cəmiyyəti təşkilatlarının və azsaylı icmaların xarici siyasət qərarvermə proseslərinə cəlb edilməsi daxildir. Bu yanaşma özlüyündə münaqişə şəraitində qadın və kişi təcrübələrindəki fərqləri tanımağı, gender bərabərsizliyinin arxasında dayanan köklü səbəbləri aradan qaldırmağı və genderə həssas müddəaların sülh müqavilələrinə daxil edilməsini və həmin müddəaların effektiv şəkildə həyata keçirilməsini təmin etməklə sülh müqavilələrində genderə həssas yanaşmanın tətbiq edilməsini tələb edir.

TÖVSİYƏLƏR:

- Hərtərəfli, vahid yanaşmanın tətbiqi.
- Sülh sazişlərinə gender aspektlərini nəzərə alan müddəaların daxil edilməsi.
- İcma, vətəndaş cəmiyyəti, hökumət və beynəlxalq təşkilatlar arasında açıq ünsiyyətin mexanizmlərinin qurulması.
- Müxtəlif icmalarda və bölgələrdə qadınlar arasında şəbəkələşmə əlaqələrinin qurulmasına dəstəyin verilməsi.
- Maliyyələşdirmə və peşə hazırlığına çıxışın artırılması, qadın sahibkarlığının təşviqi və iş yerində gender ayrı-seçkiliyinə qarşı mübarizə də daxil olmaqla qadınların sosial-iqtisadi həyatda rolunun artırılmasına yönəlmiş siyasətlərin təşviqi.
- Monitorinq və qiymətləndirmə, habelə həyata keçirilən layihələrdə tərəqqinin ölçülməsi.

## GİRİŞ

Bu müzakirə icmalı üç əsas mövzunu əhatə edir: Azərbaycan üçün alternativ kimi feminist xarici siyasət, barışıq proseslərində və sülh sazişlərində genderə həssas yanaşmanın təmin edilməsi və qaçqın və məcburi köçkün qadınların qorunması və təmsil olunması.

İcmalın birinci hissəsində feminist xarici siyasət konsepsiyası və onun Azərbaycan üçün alternativ yanaşma kimi necə xidmət edə biləcəyi müzakirə olunur. Xarici siyasət və qərar qəbuletmə proseslərində gender yönümlü yanaşmaların tətbiqinin vacibliyini vurğulayan ekspertlər feminist xarici siyasətin insan hüquqları, bərabərlik və ayrıseçkiliyin olmamasına üstünlük verildiyi daha əhatəli və vahid bir quruluş təmin edə biləcəyini iddia edirlər.

İcmalın ikinci hissəsi barışıq proseslərində və sülh müqavilələrində gender aspektlərinin nəzərə alınmasını təmin etmək üçün perspektivlərin və siyasətlərin dəyişdirilməsinin zəruriliyini vurğulayır. Mütəxəssislər qadınların qərar qəbul etmə proseslərinə cəlb edilməsinin və barışıq prosesinin bütün səviyyələrində mənalı iştiraklarının təmin edilməsinin vacibliyini vurğulayırlar. Qadınların iştirakı, təmsilçiliyi və səlahiyyətlərini genişləndirə biləcək yeni yanaşma və strategiyalar da bu hissədə müzakirə olunur.

İcmalın üçüncü hissəsi qaçqın və məcburi köçkün qadınların qorunması və təmsil olunmasına həsr edilmişdir. Ekspertlər qaçqın və məcburi köçkün qadınların qarşılaşdıqları xüsusi problemləri vurğulayır və ehtiyaclarını qarşılamaq üçün yeni yanaşmaları müzakirə edirlər. Barışıq prosesində qadınların hüquq və ehtiyaclarının düzgün şəkildə nəzərə alınmasını və səslərinin eşidilməsini təmin etməyin vacibliyini vurğulayırlar.

İcmalın sonunda siyasətçilər və vətəndaş cəmiyyəti təşkilatları üçün qadınların barışıq proseslərində iştirakını və təmsil olunması təmin etmək üçün bir sıra tövsiyələr verilir. Bu tövsiyələrə feminist xarici siyasətin təşviqi, qadınların qərarvermə proseslərində mənalı iştirakının təmin edilməsi, qaçqın və məcburi köçkün qadınlara gender həssaslı dəstəyin verilməsi və yerli qadın təşkilatlarının barışıq proseslərində iştirak etmə potensialının gücləndirilməsi daxildir.

## FEMİNİST XARİCİ SİYASƏT AZƏRBAYCAN ÜÇÜN ALTERNATİV OLA BİLƏRMİ? – YENİ PERSPEKTİVLƏR

Feminist xarici siyasət beynəlxalq münasibətlərdə gender bərabərliyinə və qadınların və digər marginal qrupların ehtiyaclarına əhəmiyyətli dərəcədə diqqət ayrılmasını dəstəkləyən bir yanaşmadır. Bu yanaşma ənənəvi xarici siyasətin patriarxallıq prizmasından inkişaf etdirildiyi və həyata keçirildiyi, qadınların və digər qrupların marginallaşmasına səbəb olduğunu iddia edir.

Azərbaycan kontekstində feminist xarici siyasət ölkənin hazırkı xarici siyasətinə alternativ yanaşma kimi təqdim edilə bilər. Belə ki, Azərbaycan qadınlar və marginal qrupların öz siyasi və iqtisadi imkanlarının genişləndirilməsi yolunda əhəmiyyətli maneələrlə üzləşdikləri patriarxal cəmiyyətdir. Belə olan halda, feminist xarici siyasət yanaşması ölkənin ikitərəfli və çoxtərəfli əməkdaşlıqlarında qadınların və digər həssas əhali qruplarının ehtiyac və qayğılarının prioritetləşdirilməsinə və bu gender əsaslı diskriminasiyanın azaldılmasınakömək edə bilər.

Feminist xarici siyasət Azərbaycanın perspektivlərinin və siyasətinin bir neçə yolla dəyişməsinə səbəb ola bilər. Birincisi, bu yanaşma ölkənin xarici siyasət məqsədləri çərçivəsində gender bərabərliyinə və qadınların rolunun gücləndirilməsinə daha çox diqqət yetirilməsinə səbəb ola bilər. Buraya diplomatik danışıqlarda qadın hüquqlarının və gender bərabərliyinin təşviqi, gender-mərkəzli inkişaf siyasətlərinin təbliği və beynəlxalq təşkilatlarda və vəzifələrdə qadın liderlərin dəstəklən-məsi daxil ola bilər.

İkincisi, feminist xarici siyasət Azərbaycanın beynəlxalq əməkdaşlıqlarında insan təhlükəsizliyinə və həssas əhali qruplarının qorunmasına diqqətin artmasına səbəb ola bilər. Buraya münaqişələrdən qeyri-mütənasib şəkildə əziyyət çəkən qadın qaçqın və məcburi köçkünlərin ehtiyaclarını prioritetləşdirmək və münaqişəli situasiyalarda xüsusilə qadın və qızların müdafiəsini təşviq etmək daxil ola bilər.

Üçüncüsü, feminist xarici siyasət diplomatik münasibətlərdə daha çox beynəlxalq əməkdaşlığa və münasibətlərin qurulmasında daha inklüziv yanaşmaya səbəb ola bilər. Buraya vətəndaş cəmiyyəti təşkilatlarının və digər həssas əhali qrupların ölkə daxilində xarici siyasət qərarlarının qəbul edilməsi proseslərinə

cəlb edilməsi, həmçinin qadınların və digər həssas əhali qruplarının diplomatik proseslərdə iştirakına üstünlük verilməsi daxil ola bilər.

Feminist xarici siyasətin Azərbaycana tətbiq olunmasının bir neçə yolu var. Məsələn, feminist xarici siyasət qadınların sülh danışıqlarına və münaqişələrin həlli səylərinə cəlb edilməsinə üstünlük verə bilər, çünki silahlı münaqişələr çox vaxt qadınlara qeyri-mütənasib şəkildə təsir edir. Bundan əlavə, feminist xarici siyasət ölkədə ciddi bir problem olan cinsi zorakılıqla mübarizə səylərini prioritetləşdirə bilər.

Gələcəkdə Azərbaycana feminist xarici siyasət alternativi etmək üçün dövlət qurumları, vətəndaş cəmiyyəti təşkilatları və icma liderlərləri arasında birgə səylər və dialoq vacibdir. Bu baxımdan tərəflər arasında açıq ünsiyyəti təşviq etmək, qarşılıqlı əməkdaşlığı gücləndirmək feminist xarici siyasət dəyərlərinin əhəmiyyəti barədə məlumatlılığı artırmaq, gender bərabərliyini təşviq etmək və qadınların xarici siyasət qərarlarının verilməsində səlahiyyətlərini artırmaq ilk addımlar ola bilər. Birlikdə işləyərək, dialoq və əməkdaşlığı təşviq etməklə dövlət qurumları, vətəndaş cəmiyyəti təşkilatları və müxtəlif icmalar Azərbaycanda feminist xarici siyasət dəyərlərinin təbliğində irəliləyiş əldə edə bilərlər.

## BARIŞIQ PROSESLƏRİNDƏ VƏ SÜLH RAZILAŞMALARINDA GENDER ASPEKTLƏRİNİN NƏZƏRƏ ALINMASINA NECƏ NAİL OLMAQ OLAR? DAVAM EDƏN BARIŞIQ PROSESİNDƏ QADINLARIN MƏNALI İŞTİRAKINA YENİ YANAŞMALAR

Araşdırmalar göstərir ki, qadınlar sülh quruculuğunda iştirak etdikdə sülh daha davamlı və uzunmüddətli olur. Bu, sülh quruculuğu proseslərində inklüzivliyin təmin edilməsinin  əhəmiyyətinin əsas səbəblərindən biridir. Dünya əhalisinin təxminən 50 faizini qadınlar təşkil etsə də, onların müxtəlif platformalarda iştirakı bu faiz nisbətinə uyğun gəlmir. Xüsusilə, sülh quruculuğu prosesində bu qeyri-bərabərlik daha aydın sezilir. Bu təkcə Qarabağ münaqişəsində deyil, Rusiya-Ukrayna müharibəsi kimi digər münaqişəli hallarda da müşahidə edilə bilər. Əgər Azərbaycan kontekstindən qiymətləndirilsə, “Track I” səviyyəsində də qadınların proseslərdə kifayət qədər iştirak yoxdur. Bu tendensiya təkcə Ermənistanla Azərbaycan arasında aparılan ikitərəfli danışıqlarda deyil, həm də ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin təmsilçiliyində də müşahidə

olunur. Təəsüf ki, hal-hazırda davam edən sülh müqaviləsi üzrə danışıqlara da qadınların fəal şəkildə cəlb olunması hgündəmdə deyil. "Track II" hesab edilən xalq diplomatiyası çərçivəsində isə qadınların daha aktiv iştirakı müşahidə edilir və onların bu prosesdə əldə etdikləri bəzi müsbət nəticələr örnək kimi istifadə oluna bilər. Buna baxmayaraq qeyd edilməlidir ki, Azərbaycanda qadınların nəinki sülh quruculuğunda, ümumiyyətlə ictimai-siyasi həyatda iştirakı çox aşağı səviyyədədir. Nümunə kimi, işə qəbul prosesi şərtlərini göstərmək olar. Məsələn, ANAMA-ya işə qəbul prosesinə diqqət yetirilərsə, qadınlardan hərbi xidmət və ya mina təmizləmə təcrübəsi tələb edildiyini görmək olar.

Kişilərin fikirlərinə görə, qadınların özləri bu proseslərdə iştirak etmək istəmirlər və ya öz hüquqları haqqında kifayət qədər məlumatları yoxdur. Təəsüf ki, qadınların bu proseslərdə iştirak etmək üçün özlərinə inamlarının olmaması ilə bağlı fikirlərlə müəyyən mənada razılaşmaq olar. Bunun əsas səbəbi odur ki, qadınların fikirləri ictimai diskurslarda adətən qəbul edilmədiyinə görə onların özünə inamı itir. Sülh quruculuğu layihələrinin idarə olunması prosesində qadınların iştirakı müəyyən qədər nəzərə çarpsa belə, hal-hazırda bu sahədə kifayət qədər az sayda qadın təlimçi var və bu istiqamətdə ixtisaslaşma xeyli aşağı səviyyədədir.

Artıq uzun illərdir ki, Ermənistan və Azərbaycan arasında sülh quruculuğu layihələri həyata keçirilir. Ancaq təəsüflə qeyd edilməlidir ki, bu prosesin bir qismi əhalinin müəyyən hissələrinə qapalı şəkildə həyata keçirilir. Məgər qadınlar səslərinin eşidilməsi üçün bu prosesdə iştirak etməyə can atmalı deyillərmi? Bir neçə paralel nümunəyə baxıldığı zaman, qadınların dünyada beynəlxalq təmsilçiliyində də oxşar vəziyyət nəzərə çarpır. Əgər belədirsə, onda qadınların sülh quruculuğunda iştirakını məhdudlaşdıran amillər hansılardır və onları necə aradan qaldırmaq olar?

Birincisi, qadınlardan ailə və ev təsərrüfatının qayğısına qalmaq kimi ənənəvi gender rollarını yerinə yetirməsi gözlənilən zaman hərhansı bərabər imkanlardan bəhs oluna bilməz. Bu, qadınların ictimai-siyasi həyatda, o cümlədən sülhquruculuğu fəaliyyətlərində iştirak imkanlarını kifayət qədər məhdudlaşdıra bilir. Məsələn, sadə bir nümunə - uşaq bağçalarının azlığıdır, bu da özlüyündə iştirak imkanlarının xeyli azalmasına səbəb olur. O cümlədən ev işləri də qadınların üzərinə düşür; məsələn, araşdırmalara görə pandemiya zamanı

qadınların nəşr etdiyi məqalələrin sayı kişilərə nisbətən xeyli az idi. 2020-ci ilin noyabr ayında "Nature Index" jurnalında dərc olunan bir məqalə, müxtəlif ölkələrdə araşdırma nəticələrini təhlil etmiş və pandemiya zamanı qadınların nəşr nisbətlərinin kişilərə nisbətən daha da azaldığını aşkar etmişdi.1 Araşdırma nəticəsində həmçinin gender bərabərsizliyinin yüksək səviyyədə olduğu ölkələrdə qadınların məhsuldarlığının daha çox təsirə məruz qaldığı müəyyən edilmişdi. 2021-ci ilin yanvar ayında "Journal of Informetrics"-də dərc olunan başqa bir araşdırma pandemiya zamanı qadınların tədqiqat məhsuldarlığının kişilərə nisbətən daha çox azaldığını və bunun xüsusilə gənc uşaqları olan qadınlar üçün doğru olduğunu müəyyən etdi.[2] Ev işləri qadınlara sülh quruculuğu da daxil olmaqla müxtəlif sahələrdə öz bacarıqlarını inkişaf etdirməyə imkan vermir. Eyni zamanda, xüsusilə kənd yerlərində yaşayan qadınların təhsil almaq imkanları məhdud ola bilər ki, bu da onların münaqişələrin transformasiyasında iştirak etmək üçün zəruri olan bacarıq və biliklərə yiyələnmək imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır.

Bu amilləri aradan qaldırmaq üçün cəmiyyətin bütün aspektlərində, o cümlədən təhsil, iş və siyasətdə gender bərabərliyinin təşviq edilməsi vacibdir. Bu yanaşma ənənəvi gender rollarına yenidən baxmağa və qadınların ictimai həyatda iştirakını təşviq etməyə kömək edə bilər. Eyni zamanda, qadınlara sülhquruculuğu fəaliyyətlərindədə iştirak etmək üçün zəruri olan bilik və bacarıqları əldə etmək üçün təhsil və təlim imkanları təmin edilməlidir. Bu imkanlara münaqişələrin həlli, vasitəçilik və danışıqlar üzrə təlimlər daxil ola bilər. Bu baxımdan, mentorluq proqramları, liderlik təlimləri və qərarların qəbulu proseslərində qadınların səslərinin və yanaşmalarının təbliği vasitəsilə qadınları sülhquruculuğu fəaliyyətlərində liderlik rollarını üzərinə götürməyi təşviq etmək də çox vacibdir. Beynəlxalq təcrübələr göstərir ki, məcburi köçkünlərin qaytarılması prosesində qadınların iştirakı kifayət qədər müsbət və faydalıdır.

Qadınların sülh quruculuğuna cəlb edilməsi prosesi çoxşaxəli, hərtərəfli və vahid yanaşma tələb edir. Bu yanaşma şəbəkələşmə, təhsil, aktivizm, strateji yanaşma və ən əsası dialoq daxil olmaqla bir neçə əsas elementi özündə əhatə edir. Şəbəkə dedikdə öz təcrübələrini, biliklərini

[1] Larivière, V., Ni, C., Gingras, Y., Cronin, B., & Sugimoto, C. R. (2020). Bibliometrics during a pandemic. Nature Index, 1(1), 1-3.

[2] Huang, L., & Liu, Y. (2021). Gender differences in research productivity during the COVID-19 pandemic. Journal of Informetrics, 15(1), 101103.

və resurslarını bölüşmək üçün müxtəlif icmalar və regionlar üzrə qadınların müxtəlif şəbəkələr ətrafında toplanması nəzərdə tutur. Şəbəkə qurmaqla qadınlar bir-birlərini dəstəkləyici əlaqələr qura bilər, öz hüquqlarını qoruma və bu istiqamətdə fəaliyyət göstərmək üçün münbit zəmin yarada bilərlər. Təhsil qadınların sülh quruculuğuna cəlb edilməsinin digər mühüm komponentidir. Qadınlar sülh quruculuğu proseslərində tam iştirak etmək üçün lazım olan bacarıq və bilikləri inkişaf etdirmək üçün təhsil və təlimə ehtiyac duyurlar. Təhsil həmçinin qadınlara öz hüquqlarını, münaqişələrin yaranma səbəblərini və mövcud müxtəlif sülhquruculuğu vasitələrini daha yaxşı mənimsəməyə kömək edə bilər.

Qadınlar arasında fəallıq onların sülh quruculuğuna cəlb olunmasını təşviq etmək üçün də çox vacibdir. Qadınlar təbliğat kampaniyaları və icma səfərbərliyi də daxil olmaqla müxtəlif fəaliyyət növlərində iştirak edə bilərlər. Bu cür fəallıq göstərməklə qadınlar onlara təsir edən məsələlər və o məsələlərin həll yolları barəsində məlumatlarını artıra bilərlər.

Mümkün vahid strategiyaların yaradılması qadınların sülh quruculuğuna cəlb edilməsinin digər əsas elementidir. Bu proses münaqişənin səbəblərinin müəyyən edilməsini, fəaliyyət planlarının işlənib hazırlanmasını və məqsədlərə nail olunması istiqamətində monitorinqin aparılmasını özündə ehtiva edir. Həmçinin dialoqa ehtiyac var ki, bu da qadınların səsinin eşidilməsi və ehtiyaclarının qarşılanması üçün icma, hökumət, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar arasında sıx əməkdaşlığı labüd edir.

Həmçinin sülh sazişlərində genderə həssas yanaşmaya nail olmaq üçün müvafiq müddəaları təmin etmək lazımdır: Sülh sazişləri qadınların ehtiyaclarını qarşılayan və gender bərabərliyini təşviq edən xüsusi müddəalar daxil edilməlidir. Bunlara qadınların qərarların qəbul edilməsində iştirakı, gender əsaslı zorakılıqdan qorunması və qadınların iqtisadi səlahiyyətlərinin artırılmasına dəstək ilə bağlı müddəalar daxil ola bilər. Bununla belə, bu müddəaların effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün onların icrasını izləmək və qiymətləndirmək çox vacibdir. Bu, gender üzrə ayrı-ayrı məlumatların toplanması, gender bərabərliyi istiqamətində irəliləyişin izlənməsi və qadınların perspektivlərinin monitorinq və qiymətləndirmə proseslərinə daxil edilməsi vasitəsilə təmin edilə bilər.

## QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN QADINLARIN QORUNMASI VƏ TƏMSİL OLUNMASI. ONLARIN EHTİYACLARINA NECƏ XÜSUSİ DİQQƏT YETİRMƏK OLAR?

Azərbaycanda münaqişələrdən təsirlənən qadınlar iş həyatlarında gender əsaslı ayrı-seçkilik, kredit, maliyyə və sahibkarlıq üçün məhdud imkanlar da daxil olmaqla, iqtisadi iştirakçılıq üçün böyük maneələrlə üzləşirlər. Azərbaycan qadınların maliyyə və təlimlərə çıxışlarının, sahibkarlıq fəaliyyətlərin artırılması, və iş yerlərində gender əsaslı ayrı-seçkiliyinin aradan qaldırılması kimi iqtisadi imkanlarının gücləndirilməsini dəstəkləyən siyasəti təşviq etmək üçün çalışmalıdır.

Qadınların müdafiəsi və təmsil olunması çoxşaxəli, vahid yanaşma tələb edən kritik məsələdir. Onların ehtiyaclarına xüsusi diqqət yetirmək üçün ilk növbədə qadınların və qızların sığınacaq, psixoloji sağlamlıq dəstəyi və təhsil kimi əsas xidmətlərə çıxış əldə edə biləcəyi təhlükəsiz yerlərin təmin edilməsi vacibdir. Eyni zamanda, qadınların qarşılarında dayanan bir çox maneələr ilə mübarizə aparmaqla, onların özlərini təmin etmək və iqtisadi cəhətdən daha müstəqil olmalarına kömək etmək üçün təhsil və iş sahəsində imkanların yaradılması xeyli əhəmiyyət daşıyır.

Hüquq-mühafizə orqanlarında qadınların sayının artırılması məcburi köçkün və qaçqın qadınların həyatına əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər. Bundan əlavə, qadınlar hüquq-mühafizə orqanlarında iştirak etdiyi zaman qarşılaşdıqları problemləri bildirməkdə tərəddüd edən digər qadınlarda inam yarada bilərlər. Bu, qadınların qisas və ya damğalanma qorxusu səbəbindən zorakılıq və ya sui-istifadə hallarını bildirməkdən çəkinə biləcəyi ərazilərdə xüsusilə vacibdir. Hüquq-mühafizə orqanlarında daha çox qadının olması bu sahələrdə mövcud ola biləcək gender əsaslı ayrı-seçkilik problemini həll etməyə kömək edə bilər. Daha çox qadını hüquq-mühafizə orqanlarında fəaliyyət göstərməyə təşviq edəcək məqsədyönlü yardım proqramları vasitəsilə gender əsaslı zorakılığa və ya ayrı-seçkiliyin digər formalarına məruz qalmış qadınların qadın hüquq-mühafizə orqanlarının məmurları və ya hakimləri ilə daha intensiv ünsiyyətdə olmağına nail olmaq olar. Bu istiqamətdə mövcud imkanlar haqqında məlumatlılığı artırmaq üçün məktəblər və universitetlərlə işləmək, eləcə də karyeralarını davam etdirməkdə marağı olan qadınlara məlumat və dəstək vermək üçün icma qrupları ilə əməkdaşlıq etmək labüddür.

Xüsusən münaqişənin təsirinə məruz qalan

qadınlar üçün təhlükəsiz yerlərin təmin edilməsi də daxil olmaqla, genderə həssas müdafiə tədbirlərinin hazırlanması və həyata keçirilməsinə ehtiyac var; xidmət təminatçılarına xidmətlərin göstərilməsi zamanı genderə həssas yanaşmaların, o cümlədən qadınların səslərinin və ehtiyaclarının eşidilməsinin və proqramın tərtib edilərək həyata keçirilməsində, nəzərə alınmasının təmin edilməsi üzrə təlimlər keçmək; gender bərabərliyini təşviq etmək və zərərli gender normaları və stereotiplərinə qarşı çıxmaq üçün yerli icmalar və liderlərlə əlaqə saxlamaq. Eyni zamanda, qadınların müdafiəsi ilə bağlı qanunvericilik bazası da təkmilləşdirilməlidir. Bu baxımdan, cinayətkarların məsuliyyətə cəlb olunmasını təmin etmək üçün hüquq-mühafizə və məhkəmə orqanlarına adekvat resursların ayrılmasına da ehtiyac var. Həmçinin, başqa qadın hüquqları ilə bağlı ortaya çıxan problemləri həll edən yeni qanunların və siyasətlərin qəbul edilməsi də bu istiqamətdə vəziyyətin yaxşılaşmasına səbəb ola bilər.

Öz növbəsində, problemlərin həlli üçün risk faktorları haqqında dataya böyük ehtiyac var. Bu cür dataya sahib olmaq ölkənin müxtəlif bölgələrindən olan qaçqın və məcburi köçkün qadınların üzləşdiyi xüsusi riskləri və çətinlikləri başa düşmək, onları zərərdən qorumaq və ehtiyaclarını ödəmək üçün siyasət və layihələr barədə məlumat verməyə kömək edə bilər.

Qaçqın və məcburi köçkün qadınların xüsusi ehtiyaclarına cavab verən ünvanlı yardım və bərpa yardımının təmin edilməsi də çox vacibdi. Məsələn, təlim, maliyyə dəstəyi, mikro-kreditlər, bazarlara çıxış və iş imkanları təmin etməklə qadınların sosial-iqtisadi rolunun artırılmasına dəstək. Həmçinin buraya qadınların səslərinin və ehtiyaclarının eşidilməsini və yardım və bərpa səylərində nəzərə alınmasını təmin etmək üçün qadın qrupları və təşkilatları ilə koordinasiya da daxildir.

Cəmiyyətdəki qadınları həvəsləndirmək və dəstəkləmək vacibdir. Qadınlara uğurlu nümunəvi şəxsləri təqdim etmək bu istiqamətdə kifayət qədər təsirli bir yol ola bilər. Maneələri dəf edən və məqsədlərinə çatan uğurlu və güclənmiş qadınları görmək məcburi köçkün və qaçqın qadınları özlərinə və öz qabiliyyətlərinə daha çox inanmağa ruhlandıra bilər. Bundan əlavə, qaçqın və məcburi köçkün qadınları mentorlar və öz sahələrində uğurlu olan peşəkarlarla əlaqələndirmək onlara öz məqsədlərinə nail olmaq üçün tövsiyələr və dəstəyin verilməsinə kömək edə bilər.

## TÖVSİYƏLƏR

Feminist xarici siyasət gender bərabərliyinə və qadınların sosial-iqtisadi rolunun artırılmasına üstünlük verməklə Azərbaycanın hazırkı xarici siyasətinə alternativ yanaşma olaraq təklif edilə bilər. Feminist xarici siyasətin həyata keçirilməsi gender bərabərliyinə, insan təhlükəsizliyinə və çoxtərəfli əməkdaşlığa daha çox diqqət yetirməyə gətirib çıxara bilər ki, bu da hökumətlər, dövlətlər arasında tərəfdaşlıq yolu ilə qarşılıqlı faydalı həllərin işlənib hazırlanması üçün dialoq, danışıqlar və məsləhətləşmələrdən istifadə etməyi nəzərdə tutur. Ancaq bu istiqamətdə hələ də çox işlər görülməlidir. Öz növbəsində, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının (BMT TŞ) "Qadınlar, Sülh və Təhlükəsizlik" üzrə 1325 saylı Qətnaməsinin həyata keçirilməsinin münaqişədən əziyyət çəkən qadın və qızların həyatını əhəmiyyətli dərəcədə yaxşılaşdıra biləcəyini qeyd etmək lazımdır.

Birincisi, qətnamə silahlı münaqişənin qadınlara və qızlara xüsusi təsirini tanıyaraq və onların tam və bərabər iştirakına çağıraraq, münaqişənin əsas səbəblərini aradan qaldırmaq və davamlı sülhü təşviq etmək üçün daha əhatəli və effektiv sülh proseslərinə gətirib çıxara bilər. İkincisi, BMT-nin TŞ-nin 1325 saylı qətnaməsinin həyata keçirilməsi münaqişə və post-münaqişə vəziyyətlərdə gender əsaslı zorakılığı probleminin həllinə kömək edə bilər. Qətnamədə gender əsaslı zorakılığın qarşısının alınması və ona cavab verilməsi, o cümlədən gender məsələləri üzrə ixtisaslaşmış ekspertlərin və qadınların müdafiəsi üzrə məsləhətçilərin sülhməramlı əməliyyatlara göndərilməsi ilə bağlı tədbirlərin görülməsi tələb olunur. Nəhayət, BMT-nin TŞ-nin 1325 saylı qətnaməsinin həyata keçirilməsi qadın və qızların humanitar yardım və post-münaqişə dövründəki bərpa-quruculuq işlərində ehtiyac və perspektivlərinin nəzərə alınmasını təmin edə bilər.[3] Bu baxımdan çoxşaxəli, hərtərəfli və vahid bir yanaşmaya ehtiyac var və bu qətnaməsinin dörd əsas fəslinə (iştirak və təmsilçilik, qorunma, qabaqlayıcı tədbirlər, yardım və bərpa) əsaslanan aşağıdakı tövsiyələr verilir.

Ümumiyyətlə, ictimai liderlərin, ekspertlərin, siyasətçilərin, medianın, QHT və beynəlxalq təşkilatların nümayəndələrinin açıq dialoq və əməkdaşlıq qura biləcəyi dövlət qurumları tərəfindən təşkil olunan milli platformanın yaradılmasına ehtiyac var. Bu tip bir platforma bu qruplara fikir mübadiləsi və ortaq hədəflərə doğru birlikdə işləmək üçün şərait yarada bilər. Əsas odur ki, bu platforma inklüziv, əlçatanvə konstruktiv dialoq və əməkdaşlığı təşviq edən olmalıdır.

3 UN Women. Women, Peace and Security Resolution 1325 (2000) https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N00/720/18/PDF/N0072018.pdf?OpenElement. Sonuncu daxil olma tarixi - 4 aprel 2023-cü

**İştirak və təmsilçilik fəsli:**

- Hüquq-mühafizə orqanlarında qadınların sayının artırılması bu sahələri daha əhatəli, həssas və qadınların ehtiyaclarının qarşılanmasında effektiv edərək, münaqişədən təsirlənmiş qadınların həyatlarına müsbət təsir göstərə bilər. Buna nail olmaq üçün hüquq-mühafizə orqanlarında qadınların dəstəkləməsinə, onlara təlim və inkişaf imkanlarının yaradılmasına ehtiyac var. Bu, qadınlara bu rollarda uğur qazanmaq üçün lazım olan bacarıq və bilikləri inkişaf etdirməyə kömək etmək üçün mentorluq proqramları, liderlik təlimləri və bacarıqların inkişafı proqramlarını da əhatə edə bilər. Eyni zamanda, qadınların hüquq-mühafizə orqanlarına daxil olmasına mane ola biləcək amilləri müəyyənləşdirmək və aradan qaldırmaq da bu istiqamətdə vacibdir. Bu, qadınların müvafiq orqanlarda karyeraya başlamasına mane ola biləcək mədəni və sosial normaların aradan qaldırılmasını və uşaq baxımına çıxışın olmaması kimi maddi-texniki maneələrin aradan qaldırılmasını əhatə edə bilər.

- Qaçqın və məcburi köçkün icmalarından olan qadınların həvəsləndirilməsi. Buna nail olmağın bir yolu bu qadınları çətinliklərlə üzləşmiş, müxtəlif sahələrdə uğur qazanmış örnək qadınlarla tanış etməkdir. Bundan əlavə, qaçqın və məcburi köçkün qadınları mentorlar və digər uğurlu peşəkarlarla əlaqələndirmək onlara şəxsi və peşəkar məqsədlərinə çatmaq üçün dəstək verə bilər.

**Qoruma fəsli:**

- Gender aspektlərini nəzərə alan həssas qoruma tədbirlərini inkişaf etdirmək və tətbiq etmək, xidmət təminatçılarını və humanitar təşkilatları genderə həssas xidmətlərin göstərilməsi yanaşmalarını öyrətmək, gender bərabərliyini təşviq etmək və gender rolları və stereotiplərinə qarşı çıxmaq üçün yerli icmalar və liderlərlə qarşılıqlı əlaqə qurmaq.

- Qadın və qızlar üçün təhlükəsiz şəraitin təmin edilməsi.

**Qabaqlayıcı tədbirlər fəsli:**

- Qadınların üzləşdiyi risk faktorları və çətinliklər haqqında datanın toplanılması. Potensial risk faktorları haqqında data toplamaqla, siyasətçilər və humanitar təşkilatlar Azərbaycanda qaçqın və məcburi köçkün qadınların ehtiyaclarını nəzərə alacaq layihələr və proqramlar hazırlaya bilərlər. Bu, həmin qadınların böyük çətinliklərlə qarşılacağı halda belə onlara inkişaf etmək üçün lazım olan dəstəyi və resursları almalararını təmin etməyə kömək edə bilər.

**Yardım və bərpa fəsli:**

- Qaçqın və məcburi köçkün qadınların ehtiyaclarının ödənilməsinin təmin edilməsi və münaqişədən sonrakı bərpa və yenidənqurma prosesində onların perspektivlərin nəzərə alınması üçün qadın təşkilatlarla əlaqə vasitəsilə onların xüsusi ehtiyaclarını nəzərə alan yardım və bərpa yardımının göstərilməsi.
- Qadınların peşə təhsili, maliyyə dəstəyi, mikrokreditlər və iş imkanlarının artırılması. Bu baxımdan, qadınların sosial-iqtisadi rolunun gücləndirilməsinə və iş yerində gender əsaslı ayrı-seçkiliyinə qarşı mübarizəyə yönəlmiş siyasətlərin təşviqi vacibdir.
- Təcrübə, bilik və resurslarını bölüşmək üçün müxtəlif icmalardan və bölgələrdən olan qadınlar arasında əlaqələrin qurulması.
- Donorlar, dövlət qurumları, vətəndaş cəmiyyəti təşkilatları və təsirlənmiş icmalar da daxil olmaqla maraqlı tərəflərə vəsait ayrılması və proqram nəticələri barədə məlumat yaymaq üçün aydın və əlçatan rabitə kanallarının hazırlanması vacibdir. Bu, şəffaflığı və hesabatlılığı artırmağa, və qaçqın və məcburi köçkün qadınların xeyrinə yönəlmiş tədbirlərə daha çox dəstək verməyə kömək edə bilər.

Baku, Azerbaijan

2023